Beat my hit

HOST

(verse: PRoMete)
Musiqi bir damardı, mənim addımlarım bir az möhkəm
AzRap'də kölgəm hələ çox sısqaları addım-addım izlər
Qızıl suyuna çəkilmiş verse'lərim sanki dərslik
Səs də səsdi; bariton
Nəfəs kəsilməməlidir, qoyulmamalıdır hərf axınına son
Practice on, like Mike Tyson
Beat me, beat me, götür qulağına sürt hitimi
Bəlkə, sənin də çabaların bir fayda verdi
Söz demək də bir incəsənətdi
Amma bu sənətin indiki vəziyyəti gilas səbəti
Səsimi qulağa sal, bəndim beynini anal
Mən hörmət gözlədikcə bağlanır üzümə kanal
Düzdür, yoxdu qalmaqalla freestyle
But all enemies died
Bizə kim deyir ki, səhv yoldayıq və düz yol var
Qalmasın qoy qayğımıza, getsin həmin düz yolla
Siz təzə euro, biz köhnə dollar
Dövriyə yüksək, konsertdə havadadır qollar
Deyiliş tərzim tökür ocağınızın üstünə şollar
Neyniyə bilər qoca ağaca kollar
Var voltaj, sən belə gözləmirdin, otur qal şokda

(Nəqarət: PRoMete)
Sətir-sətir bat daha dərinə
Dolur, boşalır bu səhnə
Uğursuzluq uğur əvəzinə
Çünki, bura səhnədir, deyil məhlə

(verse: PRoMete)
Dirty south deyil mənim tərzim
Mən, ümumiyyətlə, AzRap'də dərzi
Bilmək üçün nə baş verir, nədir dəbdə
Dinləyirəm all type hip-hop music
Məktəbimdə box idi hip-hop dərsi
Ya da hələ də yoxdu ilham pərisi məntəqəsi
Ona görə də dəqiq bilmirəm kim rap'in dədəsi, nənəsi
Təpəsi qarlı dağlar deyil güvəniləsi
Mənimçün musiqidə rap'dir tək fəsil
Respect o kəsə ki, balta kimi kəsir hər kəlməsi
Kəlləsi fikir qazanıdı qaynadır
Mete sözlə iflic edir, beat'lə oynadır
Mənəm, mənəm deyənlər deyin mənə hardadır
AzRap bu gün dardadır, PRo edir darmadağın
Bəsdi, bəsdi az gurulduyun
Bir dəfə də yağın ləkəsidi rap'in olmağı söz yığınağı
Adlandırmayın rapper hər yerindən duran balqabağı
Mal uşağı mal, əgər doldura bimlirsənsə zal
Bir az aralıda qal, bir az aralıda nəfəs al
Biz səsə bal qataraq qazanmırıq bal
Əsas məsələ track'lərdə boldu əhval

(Nəqarət: PRoMete)
Sətir-sətir bat daha dərinə
Dolur, boşalır bu səhnə
Uğursuzluq uğur əvəzinə
Çünki, bura səhnədir, deyil məhlə (x2)

Tištěno z pisnicky-akordy.cz
Sponzor: www.srovnavac.cz - vyberte si pojištění online!